**UOT 782/785**

***Leyla Zöhrabova***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyası***
***AZ1014, Bakı, Şəmsi Bədəlbəyli küçəsi, 98***
***E-mail:***leylaz7@mail.ru

# AZƏRBAYCAN MƏİŞƏT MAHNILARININ ƏSAS JANR XÜSUSİYYƏTLƏRİ

**Xülasə**: Məqalədə Azərbaycan xalq mahnılarının əsas hissəsini təşkil edən məişət mahnılarının janr xüsusiyyətləri təhlil obyektinə çevrilmişdir. Burada məişət mahnılarına daxil olan dörd janr qrupu: uşaq, lirik, yumorlu və satiralı mahnılar ayrı-ayrılıqda araşdırılır. Hər bir janr əsasən mövzu-məzmun baxımından təhlilə cəlb olunmuşdur. Janr qrupunun hər birinə verilən əyani nümunələr isə oxucuya aydın və izahlı təsəvvür yaratmağa köməklik edir.

**Açar sözlər:** məişət mahnıları, uşaq mahnıları, lirik mahnılar, yumorlu mahnılar, satiralı mahnılar.

Azərbaycan musiqi mədəniyyətinin əsasını xalq musiqi yaradıcılığı təşkil edir. Azərbaycan xalqı musiqi sənətinin ən qiymətli nümunələrini yaratmışdır. Bu nümunələr nəsildən-nəslə keçərək getdikcə təkmilləşmiş və zənginləşib bu günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan xalq musiqisinin ən böyük hissəsi mahnılardan ibarətdir. Xalq mahnılarında böyük ideyalar, dərin fikirlər və səmimi, həyacanlı hisslər, xalqın sosial-mədəni və mənəvi estetik yaşantıları, ailə-məişət münasibətləri öz əksini tapır. Xalq mahnıları əsrlərin daş sınağından süzülərək uzunmüddətli təkamül və inkişaf prosesi keçirmiş, özünəməxsus melodik və poetik çalarları əks etdirən folklor nümunələri kimi xalqın mənəvi varlığının ayrılmaz hissəsinə çevrilmişdir. “Bu səbəbdən də qədim çağlara məxsus iş, əmək prosesini əks etdirən əmək nəğmələrinin, insanın təbiət qüvvələri, mifoloji obraz və ruhlarla münasibət yaratmaq istəyinin ifadəsi olan mərasim mahnılarının, bahadırlıq, igidlik, yenilməzlik duyğusu aşılayan qəhrəmanlıq nəğmələrinin, hərəkət–davranış etiketlərinə saygı, ehtiram təlqin edən ailə-əxlaq mahnılarının ayrı-ayrı elmi mövzular şəklində öyrənilməsi vacib və təbiidir”[1, səh.7].

Bu baxımdan mahnılar öz janr müxtəlifliyi ilə seçilərək xalq məişətinin də müxtəlif cəhətlərini – tarixini, dünyagörüşünü açıb göstərir.

Azərbaycan xalq mahnılarının ən çox yayılmış hissəsini məişət mahnıları təşkil edir. Onu da qeyd edək ki, bu janra ən çox mahnılar aiddir. Bu qəbildən olan mahnılar öz mövzusuna, bədii dəyərinə, emosionallığına və obrazlılığına görə müxtəlif və rəngarəngdir. Bu xalq mahnı janrını aşağıdakı jnar qruplarına bölmək olar:

1. Uşaq mahnıları
2. Lirik mahnılar
3. Yumorlu mahnılar
4. Satirik mahnılar [2. səh.55]

Bu kimi mahnıların ən qədimi beşik və uşaq mahnılarıdır. Onlar iki janr qrupundan ibarətdir: a) anaların və nənələrin ifa etdiyi beşik mahnıları; b) uşaqlar tərəfindən ifa olunana mahnı, oyun və tapmacalarıdır.

Beşik mahnılarına ninni, laylay, oxşama və başqaları aiddir. Onları birlikdə beşik mahnıları adlandırmaq olar. Belə mahnılar analar tərəfindən oxunur. Burada onların ümid və arzuları, tez böyüyüb boya-başa çatması, igid olmasını ifadə olunur.

Bütün beşik mahnılarının şeir forması və musiqi dili olduqca sadə və yaddaqalandır. Onlar əsas etibarilə gözəl melodiyaya, zəngin melizmlərə malikdirlər. Belə mahnıların ifası da diqqətəlayiqdir. Beşik başına əyləşən ana onu astaca yırğalayır, tərpədir və eyni cür ritmə uyğun aşağı registrdə reçitativ-deklamasiya tərzində oxuyur.

Uşaqla oynayan zaman ana "oxşama" mahnılarını da oxuyur. Melodik cəhətdən oxşama ninni və laylaydan seçilsə də onlar əsasən bir-birinə bənzəyirlər. İstər xasiyyət, istərsə də şeirlərinin məzmunu baxımından beşik mahnıları öz melodiyası və lad əsasına görə çox zəngindir. Onlar oxunaqlı, ürəyəyatımlı və emosional səciyyəlidirlər. Ninninin milli koloriti və özünəməxsus intonasiya gözəlliyi bir sıra bəstəkarların diqqətini cəlb etmişdir. Ü.Hacıbəyli "Ninni"ni dörd səsli xor üçün işləmişdir. Bumahnıdan uşaqların fortepianoda ifası üçün tədris vəsaiti kimi də istifadə edirlər. Tanınmış rus bəstəkarı
M.M İppolitov-İvanov (1889-1935) "Ninni"dən 1930-cu ildə simfonik orkestr üçün yazdığı "Türk fraqmentləri"ndə istifadə etmişdir.

Uşaq mahnılarının böyük bir hissəsini uşaqların həyatı ilə əlaqədar mahnılar təşkil edir. Bu kimi mahnılar uşaqlar tərəfindən oxunulur. Uşaq mahnıları və mahnı tapmacalar, sanamalar, oyun mahnıları silsilələri məhz bu qəbildən olan mahnılardır. Belə mahnılar uşaqlara düzgünlük, dostluqda istiqanlılıq, əməksevərlik, vətənpərvərliklə yanaşı, onların dünyagörüşünü genişləndirir. Uşaq mahnıları uşaqlar tərəfindən bir qayda olaraq reçitativ-deklomasiya tərzində, bəzən isə ifadəli şəkildə oxunulur. Hətta ritmik reçitativlə başlanan mahnı sonra adi danışıq deklomasiya ilə bitir. Uşaq mahnılarını, oyun mahnıları, tapmacaları müşayiət edən musiqi öz ifa tərzinə görə sadə və melodikdir. Bu mənada "Qarı və buz", "Quzum", "Kəpənək", "İş başına", "Məstan pişik" və başqa məzmunlu mahnılar Azərbaycan musiqi folklorunun gözəl nümunələridirlər.

Uşaqların inkişafında oyun tapmacalarının da böyük rolu vardır. Belə mahnılar uşaqların təfəkkürünün inkişafına kömək göstərir. Onları təbiətlə, flora və fauna ilə tanış edir. Oyun tapmacalarının ən sadə bəsit nümunəsi "Tap görüm" ola bilər. Bu oyun tapmaca başqa uşaq oyunları kimi mahnı və reçitativli-deklomasiya ilə müşayiət olunur. "Bir quşum var bu boyda" oyunu da öz quruluşuna görə mahnı tapmacadır.

Lirik mahnılar öz melodiyası və mətn məzmunu baxımından məişət mahnılarının ən parlaq janr növüdür. Lirik mahnılar xalqımızın gündəlik həyatını əks etdirir. Bunlarda ailəyə münasibət, ayrılıq, intizar və başqa motivlər əsas yer tutur. Bu mahnılar müxtəlif yerlərdə - çöldə, iş vaxtı, toyda, şənlikdə ifaolunur. Məzmun etibarilə bu mahnıların əksəriyyəti məhəbbət mahnıları təşkil edir. Məhəbbət mövzulu mahnıların əsas obrazları gənc qoğlan və qızlar təşkil edir. "aşiqanə-romantik duyğular əsasən gəncliyə, gənclərin könül dünyasına xas olan təbii-psixoloji yaşantılardır" [1. səh.40]. Sevgi məhəbbət mahnıları özməzmunu baxımından iki qismə ayrılır.

Birinci qism mahnılar optimist ruhu, ümidverənliyi, nikbinliyi, ehtiraslığı ilə fərqlənir. Məsələn, "Qoy gülüm gəlsin ay nənə" mahnısında qız oğlana öz sonsuz məhəbbətini izhar edir. "Bülbüllər oxur" mahnısında qız öz sevgilisini bağa, çəmənə dəvət edir və ona öz məhəbbətini bildirir. "Yar bizə qonaq gələcək" mahnısında isə oğlan öz sevgilisinin intizarında olduğu haqqında oxuyur. "Ay sallanıb gələn yar", "Ahu kimi", "Gedək gəzək baxçada", "Qaragilə", "Azərbaycan maralı", "Ay Laçın", "Küşələrə su səpmişəm", "Ay dilbər" və s. sevgi hisslərini ifadə edən mahnılardır. "Bu məzmun planına daxil olan lirik mahnıların əsas məqsədi tanışlıq, yaxın ünsiyyət, doğma, səmimi münasibət yaratmaqdır" [1, səh.42]. Nümunə kimi, "Yar bizə qonaq gələcək" mahnısından bir bəndi əyani təqdim edək:

I bənd Piyalələr irəfdədir,
Hər biri bir tərəfdədi,
Görməmişəm bir həftədir.
Nəqərat: Yar bizə qonaq gələcək, balam,
Bilmirəm nə vaxt gələcək, gülüm.
Söz verib sabah gələcək.

Məhəbbət mahnılarının ikinci qisminə əsasən əksinə ona təzadlıq təşkil edir. Əgər birinci qrupa romantik təəssüratlı xoş əhval-ruhiyyə təşkil edirsə, ikinci qismə ayrılıq, iztirab, nakam məhəbbət, vəfasızlıq, sevdiyi tərəfindən aldadılması kimi məzmunlu mahnılar ön plana çəkili. Bu mahnılar öz qəmli xarakterli melodiyası ilə, ağır templi vokal miniatürlər aid nümunələrdir. Bir qayda olaraq bu kimi mahnıların poetik mətni üçün arzu və ümidin saf və aydın hisslərin vəsfi səciyyəvidir. Bu qəbildən olan mahnı mətnlərində "ah", "ay" "vay" kimi nidalar mahnıya qəm, qüssə, kədər hissləri aşılayır. Məsələn:

“Səndən mənə yar olmaz” mahnısı qəm-qüssəni vəsf edir. “Onu demə zalım yar” mahnısında isə ümidsiz sevgi öz bədii təsir qüvvəsi ilə tərənnüm olunur:

Onu demə, zalım yar,
Qadan –balan alım, yar.
Sən ki belə deyildin.
Səni bir öyrədən var. Qurban olum o gözlərə,
Məni salıbdı düzlərə ... [3, səh.125]

“Gül açdı”, “Üç telli durna”, “Girdim yarın bağçasına” və başqa belə məzmunlu mahnılar ümidsiz, sevgi-məhəbbət mahnılarına aid nümunələrdir.

Bir çox lirik xalq mahnılrında sevgi motivləri təbiət mənzərələri, ovçu və çoban həyatı fonunda verilir. Sevgilinin tərənnümü əsasən mənzərə obrazlarının poetikləşdirilməsi vasitəsilə meydana çıxır. Sevgili ceyranla, maralla, kəkliklə və çiçəklərlə müqayisə olunur. Məsələn, “Azərbaycan maralı”, “Kəklik”, “Ceyran sevgilim”, “Bağçada gül” və s. Bunlarda məhəbbət motivləri bülbülün oxuması, yazın gəlməsi, təbiətin canlanması ilə qarşılaşdırılır.

Bəzi lirik xalq mahnıları ayrı-ayrı şəxslərə, qızlara, oğlanlara həsr olunur. “Leyla”, “Aman Mələk”, “Kürdün gözəli”, “Apardı sellə Saranı”, “Mürsəli”, “Gül oğlan” və s. mahnıalr bu qəbildəndir.

Lirik mahnıların əksəriyyətində sevgilinin zahiri gözəlliyi – qaşı, gözü, qaməti, saçı, dodağı, telləri - “Qara gözlü”, “Bir ala göz”, “Sürməli qız”, “Ay qara qız”, “Qara xal yar” , “Ay qara qaş qara göz”, “Qarabağın maralı” və s. mahnılarının adları öz məzmunları haqqında aydın təsəvvür yaradır.

Gəzmə məndən aralı,
Könlüm səndən yaralı.
Gözlərinə heyranam,
Qarabağın maralı. [4; səh.96]

Azərbaycan lirik xalq mahnılarının böyük bir hissini “dialoq-deyişmə” şəklində ifa olunan mahnılar təşkil edir. Adətən bu tipli mahnıları qız oğlanla birlikdə ifa edirlər. Bu tip mahnılara “Yaylıq”, “Bir dənəsən” və s. misal ola bilər.

**Qız** – Anamdan bir yaylıq aldım,
Heç bilmirəm harda saldım.
Səndədirsə ver yaylığı,
Yaylıq salar ayrılğı, yar-yarcan,
Gözəl oğlan, ver yaylığı.

**Oğlan:** Yaylığını tanı, ay qız,
Məndə yaylıq hanı, ay qız.
Kim dedi yaylıq məndədir,
Bəlkə qalıb çəməndədir, ay gözəl
Gəl axtaraq yayalığını [4, səh.47]

Yumorlu mahnılarda xalqın həyata nikbin münasibəti, kiçik sevgi səhnəcikləri yumorlu tərzdə ifa olunur. “Çal papaq”, “Məhəmmədhəsən”, “Ay qadası” və s. mahnıları buna bariz nümunə ola bilər.

Mən gedirəm səni kimə tapşırım,
Ağlaya-ağlaya qal indən belə.
Hey, hey, çal papaq, hey, hey,
Çal papaq, çit arxalıq, boz papaq. [4; səh.29]

Satirik mahnılarda isə mənfi cəhətlər əks olunur. Bu mahnılarda xalqın məişətinin müsbət tərəfləri ilə yanaşı mənfi tərəfləri də əks etdirir. Satiralı mahnılarda kobudluq, çirkinlik əsk olunmaqla yanaşı, mənfi surətlərə, köhnə adət ənənələr kəskin şəkildə ifşa olunur: “Aman nənə”, “Necə qıydın” və s.mahnıları bu janra nümunədir.

Gördüyümüz kimi xalq məişət mahnıları öz rəngarəngliyi ilə seçilir. Bu həm bu janra daxil olan mahnıların janr müxtəlifliyində, həmçinin də elmi-nəzəri təhlillərində də öz əksini tapır.

**Ədəbiyyat:**


1. Rzayeva N. Lirik xalq mahnılarının poetikası. Bakı, “Yazıçı”, 2008.səh.131

2. İsmayılzadə R.Azərbaycan xalq mahnıları. “Azərbaycan xalq musiqisi, Bakı, Elm, 1981, səh: 52-86.

3.Azərbaycan xalq musiqisinin antologiyası (hazırlayanlar Əşİsazadə, Ə.Məmmədova, C.Mahmudova, A.Abduləliyev), Bakı, Elm, 2002, səh. 353

4. “Azərbaycan xalq mahnıları” (Not yazısı: Səid Rüstəmovundur), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1967.

**Лейла Зохрабова**
**Азербайджанские бытовые песни и их жанровые особенности**

**Резюме**

В данной статье автор исследует жанровые классификации национальных бытовых песен. По мнению исследователя в эту категорию в основном входят излюбленные народные песни. Автор к тому же, разделяет бытовые песни по четырем жанровым особенностям. В этот разряд включены детские, лирические, юмористические и сатирические песни. Также исследователь изучает содержание каждой песни в отдельности.

**Ключевые слова:** бытовые песни, детские песни, лирические песни, юмористические песни, сатирические песни.

**Leyla Zohrabova**

**Azerbaijani folk songs and their genre features**

**Summary**

In this article, the author investigates genre classifications of national everyday songs. According to the researcher, this category mainly includes favorite folk songs. The author also shares household songs in four genre features. This category includes children's, lyrical, humorous and satirical songs. Also, the researcher studies the content of each song individually.

**Keywords:** household songs, children's songs, lyrical songs, humorous songs, satirical songs.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 19.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent KamiləDadaşzadə**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**